# Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı sertifikatın təqdim edilməsi mərasimində çıxışı

**Hörmətli qonaqlar, xanımlar və cənablar!**

Sizi Azərbaycanın qədim tarixə və füsunkar təbiətə malik olan Qəbələ şəhərində salamlamaqdan məmnunluq duyuram.

**Əziz dostlar!**

Müstəqil Dövlətlər Birliyi Başçıları Şurasının 5 dekabr 2012-ci il tarixli qərarına əsasən Birliyin "Mədəniyyət Paytaxtları Proqramı"na uyğun olaraq doğma Qəbələmiz 2013-cü ilin mədəniyyət paytaxtı elan edilmişdir.

"Birliyin Humanitar Əməkdaşlıq Fondu" tərəfindən proqram çərçivəsində birliyi təmsil edən ölkələrin incəsənət ustalarının qala-konsertini Qəbələdə təşkil etmək Rusiya Dövlət Konsert Kompaniyasına həvalə olunmuşdur. Bu gün qala-konsertin yüksək səviyyədə təqdimatına və açılışına görə mən Qəbələ ictimaiyyəti adından təşkilatçılara minnətdarlığımı bildirirəm.

Öz zəngin tarixi keçmişi, misilsiz təbii gözəllikləri, əlverişli coğrafi mövqeyi ilə diqqəti cəlb edən Qəbələ Qafqaz Albaniyasının qədim paytaxtıdır. Bu şəhər dünyanın Babil, Pompey, Karfagen kimi qədim və məşhur şəhərləri ilə müqayisə ediləcək dərəcədə mühüm siyasi-iqtisadi və strateji məkanlarından biri olmuşdur. Qəbələ eramızdan əvvəl IV əsrdən eramızın V əsrinədək 900 il paytaxt statusu daşımışdır.

Qəbələnin son illərdəki sosial-iqtisadi inkişafı bu diyarı daha da məşhurlaşdırmışdır. İftixar hissi ilə qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən imzalanan sosial-iqtisadi proqramlar ölkəmizi təkcə regionda deyil, dünya miqyasında inkişaf etmiş dövlət kimi tanıtmış, dünyanın turizm mərkəzlərindən birinə çevirmişdir.

Ölkədə gedən sürətli sosial-iqtisadi və mədəni inki-



şafın fövqündə Qəbələ də bu gün eyni zamanda genişspektrli turizm və beynəlxalq tədbirlərin keçirilməsində ev sahibliyi missiyasını yerinə yetirir.

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Qəbələdə keçirilən beynəlxalq musiqi festivalları və rəsm sərgiləri istər mədəni dəyərlərimizin təbliği, istərsə də Azərbaycanın dünyada tanıdılması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Qəbələnin mədəni həyatının son illərinə nəzər saldıqda bu, daha aydın nəzərə çarpır.

2009-cü ildən başlayaraq hər il Qəbələdə keçirilən beynəlxalq musiqi festivallarında Rusiya, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, İtaliya, Sloveniya, İsveçrə, Fransa, Hollandiya, İsrail, Almaniya, Kuba, Polşa və digər ölkələrin dünyaşöhrətli drijorları, musiqiçiləri və kollektivləri çıxışlar etmişlər.

2010-cu ildən etibarən keçirilməsinə başlanan Qəbələ beynəlxalq incəsənət sərgilərinə dünyanın müxtəlif ölkələrinin məşhur fırça ustalarının qatılmasını da Qəbələnin beynəlxalq mədəniyyət mərkəzinə çevrilməsinin təzahürü hesab etmək olar.

Öz intibahını yaşayan Qəbələnin tarixi şöhrətinə qovuşmasında və dünya xəritəsində tanınmasında ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin müstəsna xidmətləti olmuşdur. Onun rəhbərliyi və yaxından köməkliyi ilə bu gün qədimliklə, tarixiliklə, yeniliyin, müasirliyin sintezi fonunda Qəbələ yenidən qurulur.

**Əziz və hörmətli qonaqlar, dostlar!**

Sizin Qəbələyə gəlişiniz bizim üçün bayramdır. Uzaq yollar qət edərək bu tədbirə qatılmağınız qonaqpərvər qəbələliləri sevindirir. Ümidvaram ki, bizimlə birlikdə keçirəcəyiniz bu günlər uzun müddət Sizin həyatınızda xoş təəssüratlar yaradacaq, xatirələrinizdə silinməz izlər buraxacaq və hər biriniz evlərinizə xoş ovqatla qayıdacaqsınız.

**Əziz dostlar, xanımlar və cənablar!**

Mən bir daha sizi qədim Qəbələ torpağında salamlayır və Qəbələyə xoş gəlmişsiniz deyirəm!

Diqqətinizə görə təşəkkür edirəm.

## Səyyar qəbullar

# Mıxlıqovaq kəndində görüş

Mıxlıqovaq kənd klubunda ictimaiyyətin nümayəndələri ilə görüş-qəbul keçirilmişdir.



Kənd inzibati ərazi nümayəndəsi Səbuhi Nəbiyev çıxış edərək qonaqları kənd əhalisi adından salamladı.

İnzibati ərazi nümayəndəsi kəndin sosial-iqtisadi göstəriciləri, görülən işlər, əhalinin məşğulluğu və bir sıra digər problemlər barədə geniş məlumat verdi.



Qeyd etdi ki, kənddə əkinçilik, meyvəçilik, heyvandarlıq inkişaf etdirilir.

Çıxışlarda kənddə problemlərin də olduğu qeyd olundu. Əhali tərəfindən kənddə məktəb binasının əsaslı təmirinə, kəndin baş yolunun təmirinə, təbii qaz xəttinin çəkilməsinə, işıq xətlərinin təmirinə, tibb məntəqəsinin tikilməsinə ehtiyac olduğu bildirildi.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qaldırılan problemləri, irəli sürülən arzu və təklifləri dinlədi və aidiyyatı üzrə idarə və təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

Kənd ağsaqqallarından Səhrab İbrahimov çıxış edərək bugünkü görüşə gəldiyinə, problemlərin öyrənilməsinə, onların həlli istiqamətində yerindəcə tapşırıq verdiyinə görə RİH başçısına minnətdarlığını bildirdi.

Sonda Səbuhi Abdullayev çıxış edərək, görüş-qəbula yekun vurdu və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, yeni iş yerlərinin açılmasının möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd etdi.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Təbrik edirik!

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyun ayının 27-də Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq dövlət qulluğunda səmərəli fəaliyyət göstərən bir qrup dövlət qulluqçusunu təltif etmişdir. Təltif edilənlər arasında Qəbələ Rayon İcra Hakimiyyətinin sektor müdiri Yaqubov Varis Abuzər oğlu da vardır.***

## *Yaqubov Varis Abuzər oğlu*

Yaqubov Varis Abuzər oğlu 5 dekabr 1951-ci ildə Bum qəsəbəsində (əvvəllər Bum kəndində) kəndli ailəsində anadan olmuşdur. 1968-ci ildə orta təhsil aldıqdan sonra Bakı rəssamlıq məktəbini, Bakı Mədəni-Maarif texnikumunu, Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Qəbələ rayonuna təyinat alan V. Yaqubov mədəniyyət evində kütləvi işçi kimi əmək fəaliyyətinə başlamışdır. Sonralar rayon mədəniyyət şöbəsinin inspektoru, Qəbələ İncəsənət Məktəbinin direktoru, mədəniyyət şöbəsinin müdiri kimi vəzifələrdə çalışmışdır.

İşlədiyi sahələrdə özünü bacarıqlı kadr kimi göstərən Varis Yaqubov 2000-ci ildə rayon icra hakimiyyəti başçısının köməkçisi vəzifəsinə irəli çəkilmiş, icra hakimiyyətində şöbə müdiri vəzifəsində çalışmış, hazırda isə sektor müdiridir.